# İNTERAKTIV METODLARıN TƏDRIISI YOLLARı

***Faidə İsayeva***
*f.ü.f.d. dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*faida.isayeva@mail.ru*
*https://orcid.org/ 0000-0003-1568-5885*
*051 904 00 47*

**Xülasə**
Müasir dövrdə bütün dünyada qlobal ünsiyyət dili ünvanını almış ingilis dilini müxtəlif məqsədlərlə mənimsəyən insanların sayı günü-gündən artmaqda davam edir. Bu dili öyrənənlərin ehtiyac və tələbatlarının köklü dərəcədə dəyişməsinə təsir edən əsas faktorlardan biri ingilis dilinin beynəlxalq aləmdə rolunun olduqca artmasıdır. Bildiyimiz kimi indi ingilis dilini mənimsəyən insanların böyük bir qismi bu dildən ünsiyyət vasitəsi kimi istifadə etmək qabiliyyətinə malik olmağı qarşılarına əsas məqsəd kimi qoyurlar. Qlobal ünsiyyət vasitəsi olması onun kommunikativ formada aşılanmasını tələb edir və hazırda ingilis dilindən qısa müddətdə səmərəli şəkildə istifadə etmək bacarığı diqqət mərkəzində saxlanılır.
Onu da vurğulamaq lazımdır ki, inkişaf etmiş ölkələrin təhsil sisteminə inteqrasiya prosesində olan respublikamızda xarici dillərin, o cümlədən də ingilis dilinin tədrisində vacib islahatlar aparılır. Bu islahatlar əsasən təhsilin məzmunu, forması, dillərin öyrədilməsində istifadə olunan təlim metodları, tələbə-müəllim əlaqələri, dərs prosesində müəllimin və şagirdin rolu və digər sahələri əhatə edir, məqalədə bu kimi məsələlərdən bəhs edilir.
**Açar sözlər:** təlim prosesi, mənimsəmək, xarici dilin tədrisi, nitq vərdişləri, ənənəvi təlim

Interactive teaching methods

**Summary**
In modern times, the number of people around the world who have mastered the English language for various purposes, which has become the global language of communication, continues to grow. One of the main factors influencing the radical change in the needs and requirements of learners of this language is the growing role of English in the international sphere. As we know, the majority of people who are learning English now have the ability to use it as a means of communication. Being a global means of communication it requires its assimilation in a communicative form, and the focus is now on the ability to use English effectively in a short period of time. It should also be noted that important reforms are being carried out in the teaching of foreign languages, including English, in our country, which is in the process of integration into the education system of developed countries. These reforms mainly cover the content, form of education, teaching methods used in language teaching, student-teacher relations, the role of teacher and student in the teaching process and other areas, the article discusses such issues.
**Key words:** learning process, mastery, foreign language teaching, speech skills, traditional learning.

## ИНТЕРАКТИВНЫЕ МЕТОДЫ ОБУЧЕНИЯ

**Резюме**
В наше время количество людей во всем мире, овладевших английским языком для различных целей, который стал глобальным языком общения, продолжает расти. Одним из основных факторов, влияющих на радикальное изменение потребностей и требований изучающих этот язык, является растущая роль английского языка на международной арене. Как мы знаем, большинство людей, изучающих английский язык, теперь имеют возможность использовать его как средство общения. Чтобы быть глобальным средством общения, необходимо прививать его в коммуникативной форме, и теперь основное внимание уделяется способности эффективно использовать английский за короткий период времени. Следует отметить, что в процессе интеграции в систему образования развитых стран важные реформы проводятся в преподавании иностранных языков, в том числе английского. Эти реформы в основном касаются содержания, формы обучения, методов обучения, используемых при преподавании языков, отношений ученика и учителя, роли учителя и ученика в учебном процессе и других областях, в статье обсуждаются такие вопросы.
**Ключевые слова:** процесс обучения, овладение, преподавание иностранного языка, речевые навыки, традиционное обучение.

## INTERFAOL TA'LIM USULLARI

**Xulosa**
Zamonaviy davrda global muloqot tili deb atalgan ingliz tilini turli maqsadlarda oʻzlashtirganlar soni kundan kunga ortib bormoqda. Bu tilni oʻrganuvchilarning ehtiyoj va talablarining tubdan oʻzgarishiga ta’sir etuvchi asosiy omillardan biri xalqaro dunyoda ingliz tilining rolining sezilarli darajada oshishi hisoblanadi. Ma’lumki, hozirda ingliz tilini oʻzlashtirgan koʻplab odamlar ushbu tildan muloqot vositasi sifatida foydalanish qobiliyatini asosiy maqsad qilib qoʻygan. Global aloqa vositasi bo'lish uni kommunikativ shaklda singdirishni talab qiladi va hozirda ingliz tilidan qisqa vaqt ichida samarali foydalana olish diqqat markazida.
Rivojlangan davlatlarning ta’lim tizimiga integratsiyalashuv bosqichida boʻlgan respublikamizda xorijiy tillar, jumladan, ingliz tilini oʻqitish borasida ham muhim islohotlar amalga oshirilayotganini alohida ta’kidlash lozim. Bu islohotlar asosan ta’lim mazmuni va shakli, til oʻqitishda qoʻllaniladigan oʻqitish usullari, oʻquvchi va oʻqituvchi oʻrtasidagi munosabatlar, oʻqituvchi va oʻquvchining oʻquv jarayonida tutgan oʻrni va boshqa sohalarni qamrab olgan boʻlib, maqolada shu kabi masalalar koʻrib chiqiladi.
**Kalit so'zlar** - o'quv jarayoni, o'zlashtirish, chet tilini o'rgatish, nutq odatlari, an'anaviy o'qitish
**Giriş.** Bildiyimiz kimi, ingilis dilinin tədrisindən bəhs edərkən sadəcə qayda və strukturlar, yəni linqvistik vahidlər deyil, həmçinin digər amillər də diqqət mərkəzində tutulmalıdır. Xarici dil öyrənənlər dili bilməklə bərabər, həmin dilin mədəniyyətini də dərindən öyrənməlidir. Məlumdur ki, dil və mədəniyyət bir-biri ilə qarşılıqlı vəhdət təşkil edir və dil mədəniyyətdən kənarda mövcud ola bilməz. Ümumiyyətlə, xarici dillərin tədris edilməsi bir-birindən fərqli mədəniyyətlər arasında körpü rolunu oynayır. Buna görə də demək olar ki, xarici dilin tədrisi ilə mədəniyyətlər arasında olduqca mühüm bir əlaqə mövcuddur. Xarici dil dərsləri müxtəlif mədəniyyətlərin müqayisəsi, kəsişməsi, mədəniyyətlərarası ünsiyyət modelini öyrədən mühit kimi də dəyərləndirilə bilər. Xarici dildə, o

cümlədən ingilis dilində mənimsənilən hər bir yeni söz və ya ifadə fərqli bir mədəniyyəti göstərir. Beləliklə, tədris edilən hər yeni söz və anlayışın kökündə milli şüur dayanır. (1.s10-15)

Beynəlxalq ünsiyyət dili olan ingilis dilini qrammatik-tərcümə metodu ilə mənimsəyən tələbələr bildirirlər ki, dilin öyrədilməsi və öyrənilməsi prosesi öyrənənlər üçün sıxıcı, onların maraq dairələrinə uyğun olmayan dərs resurslarının öyrədilən dildən ana dilinə tərcümə edilməsi, linqvistik vahidlərin təcrid edilmiş formada öyrədilməsi, sonsuz qrammatik qaydaların əzbərlənməsi halında həyata keçirilirdi. (2.s98) Bununla yanaşı ilk baxışdan sıxıcı və olduqca lazımsız görünən bu metod vasitəsilə dili mənimsəyən tələbələr onlarda ingilis dili sahəsində lazımi qədər bilik və qabiliyyətlərin olmasını və bu üsulla öyrənilmiş bilik və qabiliyyətlərin onlara dildən funksional-yönümlü formada faydalanmağa, öyrənilən dildə aydın danışmağa, yazmağa, oxumağa və eşidib-anlamağa şərait yaratdığını vurğulayırlar. Onu da qeyd etmək lazımdır ki, xarici dilin bu metodla aşılandığı halda, ingilis dilini mənimsəyən tələbələr dil daşıyıcılarına xas olmayan keyfiyyətə sahib olur. Dil kurslarında və ya fakültələrində ingilis dilini ixtisas dili kimi mənimsəyən tələbələrdə kommunikativ qabiliyyətlərin yüksək dərəcədə inkişaf etdirilməsi üçün onların yerli dil daşıyıcıları ilə real ünsiyyət prosesinə fəal şəkildə qoşulmaları vacibdir. Yalnız bu yol vasitəsilə yerli dil daşıyıcılarına xas olan danışıq və kommunikasiya bacarıqlarına sahib olmaq mümkündür. (6.s51) Ancaq onu da vurğulamaq lazımdır ki, qrammatik-tərcümə üsulu ilə vacib, əsas və təməl biliklərə yiyələnməklə, sonrakı mərhələlərdə kommunikativ qabiliyyətlər formalaşır və inkişaf etdirilir.

Xarici dil üzrə tədqiqatçılar qrammatik-tərcümə metodu ilə dilin vacib aspektləri olan qrammatika, leksika və fonetikanın tədrisində səmərəli nəticələrin əldə edilməsinin mümkün olduğu halda ingilis dilini tədris edən müəllimlərin qrammatik-yönümlü metoddan imtina edərək kommunikativ-yönümlü metodu üstün tutmalarının səbəbini araşdırmışlar. Belə ki, kommunikativ yanaşmanın əsasında duran kommunikativlik, interaktivlik və tələbəyönümlülük prinsiplərini üstün tutan mütəxəssislər və müəllimlər belə fikirləşirlər ki, tədris edilən xarici dilin, o cümlədən ingilis dilinin öyrədilməsində əsas məqsəd tələbələrə kommunikativ bacarıqların aşılanmasıdır. Belə olmadıqda linqvistik vahidlərin öyrənilməsi prosesi tamamilə mənasız və nəticəsiz olaraq qalır (7.s150).

Hazırkı dövrdə kommunikativ dil təlimi ümumi şəkildə qəbul edilmiş prinsiplərdən istifadə edir, bu prinsiplər bir-birindən fərqli üsullarla tətbiq oluna bilər və bu təqdim olunan mövzudan, tələbələrin yaşından, onların bilik səviyyəsindən və s. dən asılıdır. Bu prinsipləri qısaca aşağıdakı kimi ümumiləşdirmək olar:

1.Xarici dil öyrənilməsi prosesi tələbələrin bir-biri ilə qarşılıqlı əməkdaşlıq etməsi və ünsiyyətdə olmaları zamanı baş tutur.

2.Effektiv dərs otağı tələbələrlə tapşırıqları və çalışmaları lazımı şəkildə müzakirə etmək, dil materiallarını genişləndirmək, dilin müxtəlif situasiyalarda necə istifadə edildiyinə diqqət etmək və mənalı qarşılıqlı ünsiyyətdə iştirak etmək üçün lazımı şərait yaradır. (9.s34)

3.Mənalı qarşılıqlı ünsiyyət təlim prosesində tələbələrin maraqlı, məqsədli, tələbatlarına uyğun kontekstdə iştirakında baş verir.

4.Ünsiyyət bir sıra dil vahidlərinin istifadəsinə çağıran holistik prosesdir.

5.Dilin mənimsənilməsi həm yaradıcı və kəşfyönümlü öyrənmə fəaliyyətləri, həm də dil analizi və əksetdirmədən ibarət olan fəaliyyətlərin köməyi ilə baş tutur.

6.Dilin öyrənilməsi prosesi dilin yaradıcı istifadəsi, yoxlanılması və səhvlərin də daxil olduğu daimi bir prosesdir. Məlumdur ki, dil öyrənməyin əsas məqsədi xarici dildən diqqətli və səlis istifadə edə bilməkdir.

7.Dilin mükəmməl mənimsənilməsi effektiv öyrənmə üsulu və ünsiyyət strategiyalarının düzgün istifadəsindən asılıdır.

8.Dilin tədrisində müəllimin əsas rolu vasitəçi olmaqdır, belə ki, o, tədris olunan dilin mənimsənilməsi üçün lazımı atmosferi yaradır və tələbələrin dildən müstəqil istifadəsinə imkan verir. (3.s32-35)
Xarici dilin öyrədilməsində müasir təlim dedikdə, tədris zamanı müəllimin sərgilədiyi pedaqoji ustalıq, qabiliyyət nəzərdə tutulur. Müəllim dərs otağında lazımı şərait yaradıb tələbələrin individual mühakimələrinə müəyyən vaxt ayırırsa, tədris edilən hər mövzunun formasına uyğun priyomlardan, fəallıq və interaktivliyin təmin edilməsindən, tədqiqat suallarından istifadə edirsə, demək olar ki, o, dərsi innovativ tələblər əsasında qurmağı bacarır.
Müasir dərs mühitində şagirdlərdə yaradıcı düşüncə tərzinin inkişaf etdirilməsinə və idrakı müstəqilliyə kömək edən problemli situasiyalara, düşündürücü suallara mümkün qədər geniş yer ayrılmalıdır. Belə formada qurulmuş dərs prosesi uşaqlarda lazım olan bacarıq və vərdişləri inkişaf etdirir. Onu da qeyd etmək lazımdır ki, müasir dərs prosesi müəllimin dərsə ciddi hazırlaşmasını nəzərdə tutur. Ona görə də müəllim dərsdə hansı vəsaitlərdən necə və nə zaman istifadə edəcəyini öncədən dəqiqləşdirməli, sinifdə izah edəcəyi yeni qaydanın strukturunu əvvəlcədən düşünməli, mövzuya aid köməkçi vasitələri, faktları əsas mövzunun həllinə yönləndirməyi bacarmalı, elmi-texnoloji yeniliklərdən, müasir dövrün əsas ictimai-siyasi hadisələrindən məlumatı olmalı, biliyini davamlı olaraq genişləndirməlidir. İnnovativ dərs metodu şagirdlərin dünyagörüşünü artırmalı, onların əqidəcə inkişaf etməsinə şərait yaratmalı, təlimdə əyanilikdən və müxtəlif mənbələrdən əldə edilmiş yardımçı informasiyalarla onların dərketmə bacarıqlarını daha da artırmalıdır. (5.s31)
Qeyd edilməlidir ki, təlim və tərbiyənin birgə vəhdəti də müasir dərs prosesinin qarşısında duran vacib tələblərdən biridir. Müasir təlim uşaqların mənəvi cəhətdən inkişafına, əxlaqca mətnləşməsinə, vətənpərvərlik, insanpərvərlik, heyvansevərlik, əməksevərlik keyfiyyətlərinin aşılanmasına xidmət etməlidir. Bundan əlavə müasir dərs öz növbəsində milli təhsil sisteminin yaradılmasına və inkişafına istiqamətlənməlidir. Bunun əsasında isə bəzi vacib prinsiplər dayanır. Bu prinsiplərə nümunə olaraq aşağıdakıları göstərmək olar:
Diferensiallaşdırma
Demokratikləşdirmə
Humanistləşdirmə
İnteqrasiya
Fərdiləşdirmə və başqaları.
Şagirdlərin nailiyyətlərinin düzgün qiymətləndirilməsi və motivasiyalarının təmin edilməsi məqsədilə milli, ümumbəşəri dəyərlərin diqqətə alınması, ümumi inkişafı, meyli və bacarıqları diqqətə almaqla uşaqlara lazımı təlim şəraitinin yaradılması vacibdir. Belə olduqda uşaqlar fəal, tədqiqatçı mövqeyində çıxış edir, müəllimin doğru istiqamətləndirməsilə şagirdlər üçün yeni elmi məlumatların müstəqil formada əldə edilməsi, mənimsənilməsi imkanı yaradılır. Belə təşkil olunmuş fəal təlimdə uşaqlarda aktiv, yaradıcı təfəkkür bacarığı və yeni bilikləri müstəqil əldə etmə yolları birləşdirilmiş olur. Bu cür təlim forması şagirdlərə hər hansı məsələnin qrupla birlikdə həll edilməsini, bir-birinin düşüncəsinə hörmətlə yanaşmağı, müstəqil öyrənməyi, öz fikirlərini sərbəst formada dilə gətirməyi aşılayır. (4.s16)
Xarici dil mütəxəssisləri belə hesab edir ki, ingilis dili müəllimlərinin bir-birinin dərslərində iştirak etməsi və nümunəvi, müasir təcrübəyə sahib olan müəllimlərin “açıq dərs”lərinin təşkil olunması müasir təlim üsulunun düzgün tədris edilməsi baxımından olduqca faydalıdır. Belə ki, müşahidə olunan dərs prosesinin təhlil və müzakirəsi tənqidi düşüncənin süzgəcindən keçərək ümumiləşir və yekun nəticə əldə edilir. Bu hallarda isə müəllimlər həm metodik cəhətdən biliklənir, həm də yeni təlim yanaşmalarını doğru təşkiletmə imkanlarına malik olurlar.
Hal-hazırda interaktiv dərs prosesi elə qurulmalıdır ki, uşaqlar yeni biliyi tədqiqat üsulu ilə əldə etsin. Bu dərs prosesində şagirdlər qrup və cütlərlə iş formasında məsələnin həlli üsullarına aid tədqiqata

yönəldilir, qrup üzvləri axtarış nəticəsində tapılmış məlumatları işçi vərəqlərdə qeyd edir, daha sonra onun təqdimatını həyata keçirirlər. Təqdimatların ardınca əldə edilmiş tədqiqat nəticələri arasında əlaqə yaradılır, yeni məlumatlar sistemləşdirilir və ümumiləşdirilərək təsnif olunur. Beləliklə, sonda ümumiləşdirilmiş tədqiqat nəticələri ilə dərsin əvvəlində şagirdlərin irəli sürdüyü ilkin fikirlər arasında müqayisələr edilir. Uşaqlar müqayisə zamanı hansı fərziyyələrin üst-üstə düşdüyünü, hansıların isə onlar üçün yeni olduğunun şahidi olur və ümumi nəticə çıxarırlar.

Əgər öncəki illər şagirdlər onlara lazım olan bilikləri əldə etmək üçün sadəcə iki əsas bilik mənbəyi yəni müəllim və dərslikdən istifadə edirdilərsə, indi həmin mənbələr genişmiqyaslı informasiya mənbələri ilə müqayisədə zəif qalır. Buna görə də müasir təlimin əsas vəzifələrindən biri şagirdlərə öyrənməyi öyrətməkdir, yəni şagirdləri lazımı bilik və bacarıqları müstəqil əldə etməyə həvəsləndirməkdir. Yalnız təlim yanaşmalarının keyfiyyətcə dəyişdirilməsi, bu yanaşmaların şəxsiyyətə, onun ehtiyaclarına istiqamətləndirilməsi, bilikləri öyrənmədə yaradıcı təfəkkürdən aktiv istifadə edildikdə təlim nailiyyətləri yüksək səmərə verə bilər. Bununla yanaşı şəxsiyyətyönümlü belə təlim mühiti inkişaf proseslərinin keyfiyyətinə də olduqca təsir edəcək: idraki  və sosial aktivliyi yüksəltməklə, şəxsiyyətin dəyərlərini və bacarıqlarını inkişaf etdirəcək. Sadalanan tələblərin diqqətə alınması məhz məhsuldar, yaradıcı təfəkkürü və yeni məlumatları müstəqil əldəetmə   yollarını özündə birləşdirən interaktiv təlim metodologiyasına üstünlük verməyi kifayət qədər zəruri edir. (10.s76)

İnkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq interaktiv tədris metodu təlim prosesinin keyfiyyətini yüksəltmək üçün əhəmiyyətli vasitə ola bilər. Dərs prosesi bu metod sayəsində şagirdlər üçün olduqca maraqlı və cəlbedici olur. Fəal təlim üsulu həm dərsin məzmununun mənimsənilməsinin, həm də tətbiqinin səmərəliliyini yüksəldir və uşaqların anlama qabiliyyətini daha da aktivləşdirir. Ölkəmizdə də müasir təlim metodlarının tətbiq edilməsi artıq həyata keçirilir. Son zamanlar Azərbaycanda interaktiv dərs formalarının planlaşdırılması, hazırlanması və onların tətbiq edilməsi üçün əhəmiyyətli olan əsas təcrübə toplanılmış, müəllimlər yeni təlim metodlarından istifadə etmək üçün  onlara lazım olan bilik, bacarıq və qabiliyyətlərə yiyələnmişdir. Aparılan monitorinqlər sübut edir ki, interaktiv təlim metodlarını tətbiq edərkən müəllimlər bir sıra çətinliklərlə qarşılaşır. Belə ki, müəllimlər yeni təlim üsulunu həyata keçirərkən təcrübənin genişləndirilməsinə və digər yoldaşlarla bölüşməyə daha çox ehtiyac duyurlar. Müəllimlərin yeni metodlar sayəsində təcrübələri artdıqca və bu təlimə kifayət qədər müəllim cəlb olunduqca, yeni metodiki tövsiyələrə, təlim resurslarına və digər metodiki vəsaitlərə tələbat artır. İnteraktiv təlim fəaliyyətində müəllimlər üçün biliklərin və müasir tədris üzrə təcrübələrin geniş yayılması çətinliklərin qarşısını almaq üçün ən səmərəli və ideal yollardan biridir.

**Metod** – məqalədə nəzəri-təhlil, təsvir, eksperimental, müşahidə metodlarından istifadə olunmuşdur.

**Nəticə** - İngilis dilinin mənimsənilməsində müasir dövrün tələblərinə cavab verən innovativ yanaşmaların böyük əhəmiyyəti vardır. İnnovativ təlim metodları ənənəvi metodlardan fərqli olaraq, interaktivlik və ünsiyyətdən səmərəli istifadə etməyə imkan verir. Xarici dilin tədrisi prosesində müasir texnoloji vasitələrdən geniş istifadə edilməsi onun qısa müddətdə öyrənilməsinə şərait yaradır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

1. “Xarici dillərin tədrisinin aktual problemləri” mövzusunda Respublika elmi-praktiki konfransının tezisləri, 2017
2. Abbasova S. İngilis dili fənninin tədrisi metodikasında yeni, müasir təlim metodları, Bakı 2005
3. Məmmədzadə M. İngilis dilinin tədrisində kommunikativ metod, Bakı 2005
4. Qəribova M.N. İxtisas fakültələrinin aşağı kurslarında alman dilinin tədrisində interaktiv metodlardan istifadə. Bakı 2012

5. Littlewood W. 1981. Communicative Language Teaching. Cambridge University Press
6. Krashen S.D. Explorations in Language Acquisition. Heinemann, 2003
7. Ur P. A Course in Language Teaching. Printed in Great Britain at the University Press, Cambridge, 1996
8. Шатилов С.Ф., Шевяков В.Н., Склизков Ю.А. некоторые проблемы совершенствования устной иноязычной речи на продвинутом этвпе обучения в языковом вузе. Совершенствование устной иноязычной речи на продвинутом этапе обучения в школе и вузе. Л.: 1974
9. Гусейнзаде Г.Д. Обучение речевой коммуникации на иностранном языке. Баку: «Мутарджим», 2001
10. Гурвич П.Б. основы обучения устной речи на языковых факультетах. Владимир, 1974